***ALİ MƏCLİSİN İCLASI***

*26 may 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*
*birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli media nümayəndələri, hamınızı salamlayıram.

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının onuncu iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 44 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| --- | --- |
| İştirak edir | 44 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli deputatlar!

Bugünkü iclasın gündəliyinə 2 məsələ daxil edilmiş və sizlərə təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| --- | --- |
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanaraq göndərilmiş qanun layihəsi baxılması üçün Ali Məclisin plenar iclasının gündəliyinə salınıb.

Gündəliyin birinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin tələblərinə uyğun olaraq Ali Məclisin 13 may 2026-cı il tarixdə keçirilən plenar iclasında ikinci oxunuşda qəbul edilərək aparıcı komitəyə qaytarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinə əsasən aparıcı komitə ikinci oxunuşda qəbul edilmiş qanun layihəsini müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün üçüncü oxunuşa hazırlayır.

Bu məqsədlə 22 may 2026-cı il tarixdə Hüquq siyasəti komitəsinin iclası keçirilmiş, iclasda qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir. Layihə ilə bağlı komitə iclasında deputatlar tərəfindən təklif və ya irad bildirilməmişdir.

Bu səbəbdən “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi üçüncü oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyası dövründə fəaliyyəti barədədir.

Hörmətli həmkarlar, bu gün yaz sessiyasının sonuncu iclasıdır. Yaz sessiyasının yekunları barədə qısa məlumat vermək istəyirəm.

2026-cı ilin yaz sessiyası ərzində 10 plenar, 19 komitə, 4 komissiya iclası keçirilmiş, 9 qanun və 11 qərar qəbul edilmişdir. Qanunlardan 7-si dəyişikliklərlə, 1-i ləğvlə, 1-i isə yeni qanunun qəbul edilməsi ilə bağlı olmuşdur. Ali Məclisin qəbul etdiyi qərarların 9-u prosedur xarakterli, 2-si isə dəyişikliklərlə bağlı olmuşdur.

2026-cı ilin yanvar ayından "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanunu qəbul edilənə qədər 12 fərman imzalanmışdır.

Eyni zamanda yanvar-may ayları ərzində 59 sərəncam imzalanmış, həmçinin Ali Məclis Aparatının işinin təşkil edilməsi ilə bağlı Ali Məclis sədrinin 2 qərarı qəbul edilmişdir.

Müvafiq fərman və sərəncamlarla 33 hüquqi akt ləğv edilmiş, 24 hüquqi aktda dəyişiklik edilmiş, 4 qurumun əsasnamələri dəyişdirilmiş, 2 qurum ləğv edilmişdir.

Cari ilin ilk 5 ayı ərzində yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları tərəfindən seçildikləri ərazilər üzrə 245 vətəndaş qəbulu keçirilmiş, 590 seçicinin 677 məsələ üzrə müraciəti qeydə alınmışdır.

Yanvar ayından bu günədək Ali Məclisə 162-si ərizə, 76-sı şikayət, 1-i təklif olmaqla, ümumilikdə, 239 müraciət daxil olmuşdur.

Daxil olan müraciətlərin qanunvericiliyin tələblərinə uyğun qaydada icrası təmin edilmişdir.

Hörmətli deputatlar!

2026-cı ilin yaz sessiyası dövründə Ali Məclisin nümayəndələri bir sıra yerli tədbirlərlə yanaşı, ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərdə də iştirak etmişdir.

Belə ki, cari ilin fevral ayının 6-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində "Azərbaycan gəncliyi: Ulu Öndər ideyalarından müasir inkişaf mərhələsinədək" adlı tədbir keçirilmişdir.

Həmçinin 31 mart – 2 aprel 2026-cı il tarixlərdə Fransanın Strasburq şəhərində keçirilən Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 50-ci sessiyasında və ölkəmizdə səfərdə olan Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Baş katibinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Azərbaycan nümayəndə heyətinin tərkibində Ali Məclisin deputatları da iştirak etmişdir.

Hörmətli həmkarlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyası dövründə fəaliyyəti barədə qısa məlumatı diqqətinizə çatdırdım.

Gündəlikdə duran məsələ ilə əlaqədar deputatlardan çıxış etmək istəyən varmı?

Buyurun, Rza müəllim!

**R.Xudiyev.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar!

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı ilin yaz sessiyasının yekunları göstərir ki, muxtar respublikada qanunvericilik fəaliyyəti müasir dövrün çağırışlarına uyğun davam etdirilmiş, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, sosial-iqtisadi inkişafın sürətləndirilməsi və vətəndaş rifahının yüksəldilməsi istiqamətində mühüm qərarlar qəbul olunmuşdur. Sessiya müddətində keçirilən plenar iclaslarda bir sıra qanun layihələri müzakirə edilərək qəbul edilmiş, komitələrin fəaliyyəti daha da fəallaşdırılmışdır.

Yaz sessiyası ərzində idarəetmənin daha çevik və səmərəli təşkili, hüquqi mexanizmlərin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmışdır. "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası qanunlarına dəyişikliklər edilməsi ilə bağlı aparılan müzakirələr demokratik institutların inkişafına və deputat fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə xidmət etmişdir.

Komitələrin fəaliyyətində müşahidə olunan dinamizm də sessiyanın əsas cəhətlərindən olmuşdur. Komitə iclaslarında aparılan müzakirələr qərarların daha dolğun və ictimai maraqlara uyğun şəkildə formalaşdırılmasına əlverişli şərait yaratmışdır.

Hörmətli həmkarlar!

Bu gün Naxçıvan Muxtar Respublikası ölkəmizin ümumi inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi kimi inkişafını davam etdirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində muxtar respublikanın sosial-iqtisadi potensialı daha da güclənir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı ilin yaz sessiyası da məhz bu strateji inkişaf xəttinə uyğun olaraq dövlətçilik maraqlarına xidmət edən mühüm qərarlarla yadda qalmışdır. Əminliklə demək olar ki, sessiya dövründə görülən işlər qanunvericilik bazasının müasirləşdirilməsinə, davamlı inkişafın təmin olunmasına və vətəndaş rifahının yüksəldilməsinə mühüm töhfə verəcəkdir.

Qarşıdakı dövrdə də Ali Məclisin fəaliyyəti dövlətçilik prinsiplərinə, milli maraqlara və xalqımızın rifahına xidmət edəcəkdir.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Rza müəllim!

Məsələ ilə bağlı əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Elmar müəllim!

**E.Rzayev.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar və əziz media nümayəndələri!

Ölkəmizdə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin prioritetlərindən biri də vətəndaş məmnunluğunun artırılması, əhalinin sosial rifahının yüksəldilməsi və dövlət xidmətlərinin daha çevik və şəffaf şəkildə təşkil olunmasıdır. Bu yanaşma dövlət idarəçiliyinin bütün səviyyələrində olduğu kimi, parlament fəaliyyətində də öz əksini tapır və deputatların yaz sessiyası dövründə fəaliyyətini məhz vətəndaş müraciətlərinə həssas yanaşma, sosial problemlərin həllinə dəstək və seçicilərlə işin gücləndirilməsi istiqamətində qurmasına zəmin yaradır.

Yaz sessiyası dövründə deputatlar tərəfindən seçicilərlə mütəmadi görüşlər keçirilmiş, vətəndaş müraciətləri diqqətlə araşdırılmış, sosial problemlərin aidiyyəti qurumlar qarşısında qaldırılması və həlli istiqamətində ardıcıl işlər görülmüş, ictimai və sosial əhəmiyyətli məsələlərin müzakirəsi və nəzarətdə saxlanılması təmin edilmişdir.

Hörmətli iclas iştirakçıları!

İki gün sonra qeyd olunacaq 28 May – Müstəqillik Günü xalqımızın dövlətçilik tarixində xüsusi əhəmiyyətə malikdir. 28 May 1918-ci il tarixində Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradılmış, xalqımızın müstəqillik arzusu reallığa çevrilmişdir. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizdə mühüm iz qoymuş, demokratik dəyərlərə və milli suverenliyə əsaslanan dövlətçilik ənənələrinin təməlini formalaşdırmışdır.

Bu dövlətçilik ənənələri Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə qorunmuş və daha da möhkəmləndirilmişdir. Məhz onun uzaqgörən siyasəti nəticəsində Azərbaycan müstəqilliyini itirmək təhlükəsindən xilas olmuş, dövlətçiliyimiz dönməz xarakter almışdır. Ulu Öndərin: “Müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir” - fikri bu gün də aktuallığını qoruyur.

Bu siyasi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və onun rəhbərliyi ilə Azərbaycan regionun güclü dövlətinə çevrilmiş, iqtisadi, siyasi və hərbi sahədə mühüm uğurlar qazanmışdır.

Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycan Xalq Cümhuriyyətinin idealları müstəqil Azərbaycan Respublikasında yaşayır və daha da güclənir. Ölkəmizin COP29 və 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) kimi beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ölkəmizin gücünü və inkişafını bir daha nümayiş etdirir.

Hörmətli həmkarlar!

Hər birinizi 28 May – Müstəqillik Günü və Qurban bayramı münasibətilə təbrik edir, xalqımıza əmin-amanlıq, dövlətimizə daim yüksəliş və qüdrət arzulayıram.

Diqqətiniz üçün minnətdaram!

**Sədrlik edən.** Sağ olun, Elmar müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Asəf müəllim!

**A.Orucov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar!

Bu gün yaz sessiyasının sonuncu iclasıdır. Ümumilikdə, yaz sessiyası ərzində muxtar respublikanın ictimai-siyasi həyatının müxtəlif istiqamətlərini əhatə edən məsələlər diqqət mərkəzində saxlanılmış, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində ardıcıl fəaliyyət həyata keçirilmişdir. Sessiya müddətində qəbul olunan qərarlar və müzakirə edilən qanun layihələri dövlət idarəçiliyinin daha da müasirləşdirilməsinə, vətəndaşların hüquq və mənafelərinin qorunmasına, eləcə də demokratik institutların inkişafına xidmət etmişdir.

Yaz sessiyası ərzində bir sıra mühüm qanun və qərarlar qəbul edilmiş, normativ hüquqi aktlarda vacib dəyişikliklər aparılmışdır. Bu dəyişikliklərin bir qismi "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırmaq məqsədilə həyata keçirilmişdir.

Sessiya dövründə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsi dinlənilmiş, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı" müzakirə olunmuşdur. Eyni zamanda "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilərək deputatların əməkhaqlarının artırılması və deputat köməkçiləri institutunun yaradılması ilə bağlı məsələlərə baxılmış, "Normativ hüquqi aktlar haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında", "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının qanunlarında da müvafiq dəyişikliklər edilmişdir.

Yaz sessiyası dövründə həyata keçirilən qanunvericilik fəaliyyəti muxtar respublikanın sosial-iqtisadi inkişafına, dövlət idarəçiliyində səmərəliliyin artırılmasına və vətəndaş məmnunluğunun təmin olunmasına öz töhfəsini vermişdir. Qarşıdakı dövrdə də Ali Məclisin üzərinə düşən vəzifələri uğurla davam etdirəcəyinə əminliyimi ifadə edirəm.

Hörmətli iclas iştirakçıları!

Fürsətdən istifadə edərək hər birinizi qarşıdan gələn 28 May – Müstəqillik Günü və Qurban bayramı münasibətilə təbrik edir, dövlətimizə və xalqımıza daim sülh, sabitlik və firavanlıq arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Asəf müəllim!

Başqa çıxış etmək istəyən varmı?

Buyurun, Canməmməd müəllim!

**C.Canməmmədov,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı ilin yaz sessiyasını yekunlaşdırırıq. Hesab edirəm ki, yaz sessiyası bütövlükdə həm normayaratma fəaliyyəti, həm də mühüm qərarların qəbul olunması baxımından məhsuldar və səmərəli olmuşdur. Sessiya müddətində qəbul olunan qanun layihələri və müzakirə edilən məsələlər Naxçıvan Muxtar Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi və hüquqi bazanın möhkəmləndirilməsi məqsədlərinə xidmət etmişdir.

Hesab edirəm ki, qarşıdakı dövrdə də Ali Məclisin fəaliyyəti dövlətçilik maraqlarının qorunmasına, vətəndaş məmnunluğunun artırılmasına və həyata keçirilən islahatlara dəstəyin daha da gücləndirilməsinə öz töhfəsini verəcəkdir.

Hörmətli iclas iştirakçıları!

Qarşıdan milli dövlətçilik ənənələrimizi və xalqımızın milli-mənəvi dəyərlərə bağlılığını özündə ehtiva edən iki mühüm əlamətdar gün: 28 May – Müstəqillik Günü və müqəddəs Qurban bayramı yaxınlaşır. Bu münasibətlə hər birinizi səmimi-qəlbdən təbrik edir, xalqımıza əmin-amanlıq, dövlətimizə daha böyük uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Canməmməd müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 1.5-ci maddəsinə əsasən yaz sessiyası fevralın 1-də başlanır və mayın 31-dək davam edir.

Diqqətinizə çatdırıram ki, Daxili Nizamnamənin 6.4-cü maddəsinə uyğun olaraq Ali Məclisin sessiyaları arasındakı dövrdə Ali Məclisin komitə və komissiyalarının işi davam edir və Ali Məclisin deputatları komitə və komissiyaların işində iştirak edirlər.

Hörmətli deputatlar!

Sizi və muxtar respublikanın bütün sakinlərini qarşıdan gələn Qurban bayramı və 28 May – Müstəqillik Günü münasibətilə təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasını bağlı elan edirəm.

Sağ olun!

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*